**Ülviyə Firamil qızı CÜMŞÜDLÜ**
Azərbaycan Turizm və Menecment Universiteti, müəllim, dissertant, Bakı, Azərbaycan
E-mail: ulviyya.cumshudlu@atmu.edu.az
ORCID ID: 0009-0009-9950-8819

# AZƏRBAYCAN RESPUBLIKASINDA TƏHSİL - SOSİAL İNKİŞAFIN PRİORİTET İSTİQAMƏTLƏRİNDƏN BİRİ KİMİ

**Xülasə**

Cəmiyyətin sosial inkişafında səhiyyə, məşğulluq və gəlir səviyyəsi, mədəni inkişaf, insan hüquq və azadlıqları və s. ilə yanaşı əsas amillərdən biri də təhsil faktorudur. Hər bir ölkədə təhsilin inkişafı həmin ölkədə bütün sahələrin savadlı kadrlarla təmin olunmasına, ölkə gələcəyinin dayanıqlı zəmin üzərində qurulmasına imkan yaradır. Bu baxımdan, təhsil sahəsinin digər sahələrlə paralel olaraq araşdırılması ölkənin sosial inkişafında hər bir sahəyə təsir edən əsas istiqamətlərin müəyyənləşdirilməsinə şərait yaradır. Məqalənin əsas məqsədi Azərbaycan Respublikasında sosial sahələrdən biri olaraq təhsil sahəsinin inkişaf tempinin araşdırılmasıdır. Məqalədə təhsilin inkişafı istiqamətində yazılmış məqalə və kitablara əsaslanan məlumatlar analitik təhlil olunmuş, müxtəlif rəsmi mənbələrdən toplanılmış son onilliyə əsaslanan statistik göstəricilər müqayisə edilmişdir. Ümumilikdə, tədqiqat işində təhsil sosial inkişafın əsas istiqamətlərindən biri kimi araşdırılmış, son on illik ərzində ölkədə aparılan təhsil islahatları, qəbul edilmiş dövlət proqramları, təhsil müəssisələrində təhsil xidmətinin keyfiyyəti, regionlarda təhsilin inkişafı istiqamətində görülən işlərə nəzər yetirilmiş və nəticə olaraq əldə edilən nailiyyətlər tədqiq edilmiş və ümumiləşdirilmişdir.

**Açar sözlər:** təhsil sistemi, inkişaf, təhsildə islahat, dövlət proqramı, Azərbaycan.

**UOT:** 37.014; 316.42
**JEL:** I25, I28, H52
**DOI:** https://doi.org/10.54414/MGWA2981

## Giriş

Sosial inkişaf anlayışı haqqında aparılan tədqiqatlar, sosial inkişaf anlayışına verilən təriflər gün keçdikcə yenilənməyə. daha fərqli stillərdə izah olunmağa başlanmışdır. Sosial inkişaf anlayışının izahında əsas çatışmazlıqlardan biri də bu anlayışın daha çox qeyri-maddi tərəfdən izah olunmasıdır. Bu səbəbdən, bir sıra müəlliflərin məqalələrinə əsasən sosial inkişaf anlayışının həm maddi, həm də qeyri-maddi izahına ehtiyacın olduğu əsas məsələlər arasında yer alır. Ümumiyyətlə inkişaf anlayışı dövr keçdikcə daha fərqli formalarda təzahür etməyə başlamışdır. İqtisadi inkişaf anlayışı 1950-60-cı illərdə izah olunan iqtisadi inikişaf anlayışından çıxaraq 1970-ci illərdə yoxulluğun azaldılması, 1980-ci illərdə dayanıqlı inkişaf, 1990-cı illərdə insan inkişafı anlayışı olaraq göstərilmiş, sonralar daha da genişlənərək 2000-ci illərdə Minillik inkişaf məqsədi, 2015-ci ildə isə Dayanıqlı inkişaf məqsədləri olaraq formalaşmışdır [1, s.15-17].

İnsan tərbiyəyə ehtiyacı olan yeganə varlıqdır. Çünki tərbiyə dedikdə biz qayğı, intizam və təlimi, eləcə də mədəniyyət və hazırlığı başa düşürük. Buna görə də insan inkişaf mərhələlərinə uyğun olaraq əvvəlcə körpə (qulluq tələb edən), sonra uşaq (intizam tələb edən) və nəhayət şagird (təlim tələb edən) olur. İ. Kantın bu yanaşması göstərir ki, insanın formalaşması təkcə tərbiyə edilməklə, ya da yalnız bilik əldə etməklə məhdudlaşmır, bu proses daha geniş mənanı ifadə edir. Müasir dövrdə təhsil anlayışı da məhz bu yanaşmanı göstərir, təhsil yalnız informasiyanın ötürülməsi deyil, həmçinin insanın bir şəxsiyyət kimi formalaşmasına təsir edən əsas proseslərdən biridir. Yəni, təhsil sisteminin əhəmiyyəti təkcə bilikli insan formalaşdırmaq deyil, həmçinin cəmiyyətə faydalı, sosial

məsuliyyətləri olan şəxsiyyət formalaşdırmaqdır [2, s.1-2].

Təhsil həm də təqlid deməkdir. Cəmiyyətə yeni daxil olan fərd həmin cəmiyyətin normalarını, qanun və qaydaları bilmirlər. Bunlar təqlid vasitəsilə fərd tərəfindən mənimsənilir. Təhsil mədəniyyətin, sosial dəyərlərin, etikanın, adət-ənənə və qaydaların bir nəsildən digərinə daha inkişaf etmiş, zərərsiz metodlarla ötürülməsi deməkdir. Təhsil o zaman həqiqi təhsil olar ki,

- dəyərli hesab edilən məlumatları özündə cəmləşdirsin və könüllü qəbul olunan bir proses olsun;
- onu öyrənən şəxsə yeni düşüncə qabiliyyəti və keyfiyyətli anlama səviyyəsi versin;
- şəxsi müstəqil mühakimə yürütmək qabiliyyətinə təşviq etmək üçün düzgün metodlardan istifadə etsin [3, s.3].

Təhsil və sosial inkişaf arasında əlaqə ümumi olaraq müsbət qiymətləndirilir. Təhsil, insanların rifah səviyyəsinin yaxşılaşmasında əsas rol oynayan faktorlardan biridir (rifah səviyyəsi dedikdə tək maddi yox, həm də subyektiv rifah halından söhbət gedir). Yəni, təhsil insanların, fərdlərin və cəmiyyətin baş verən proseslərə asan ayaq uydurmasına, sosial şəraitlərini inkişaf etdirməsinə təsir edən prosesdir. Təhsil, öyrənmək istəyi insanların arzu və istəklərini artırır, daha yüksək dəyərlərinin formalaşmasına, həyat və düşüncələrinin zənginləşməsinə kömək edir [4].

**Azərbaycanda təhsil sosial inkişaf kimi.** Müasir Azərbaycan Respublikasının qarşısında duran əsas məsələlərdən biri də, dövrün tələblərinə uyğun təhsil sisteminin təşkil edilməsidir. Təhsil bütün sosial sferalarla əlaqəsi olan, ictimai mühitin bütövlüyünü təmin edən bir infrastrukturdur. Bu infrastrukturun düzgün qurulması, ölkənin hər bir sektorunda düzgün inkişafa nail olmağa istiqamətləndirən əsas qapı hesab edilir. Hazırda inkişaf etmiş ölkələrdə tətbiq olunan təhsil sistemi illərlər sınaqdan keçirilmiş, şəxsiyyətyönümlü, nəticə yönümlü təhsilə nail olunmuşdur [5, s.30]. Azərbaycan da bu təcrübələrdən irəli gələrək son dövürlərdə təhsil sistemini şəxsiyyətyönümlü sistemə adaptasiya etməyə başlamışdır. Bu proses məqalədə aşağıda göstərilən faktiki nümunələrlə sübut olunur.

Azərbaycan Respublikasında təhsilin inkişafına yönəlmiş bir sıra dövlət proqramları qəbul edilmişdir. Bunlara "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı", "2007–2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı", "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2028-ci illər üçün Dövlət Proqramı", "2019–2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı", "2018–2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı" daxildir. Bu proqramlar müəyyən dövrlərdə təhsilin müxtəlif sahələrində əhəmiyyətli irəliləyişlərə və inkişafa təkan vermişdir. 2017-2018-ci illərdə "Təhsildə keyfiyyət ili" elan edildikdən sonra təhsilin keyfiyyəti və əlçatanlığı istiqamətində bir sıra layihələr həyata keçirilmişdir [6].

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" sənədində təhsilin əhəmiyyəti, təhsil sisteminin cari vəziyyəti, təhsildə inkişaf strategiyaları, strateji istiqamətlər, hədəf və məqsədlər və s. təhlil edilir. Sənəddə təhsil sahəsində beş əsas strateji istiqamətdə işlərin görülməsi qərarlaşdırılıb:

- səriştəyə əsaslanan təhsil;
- insan resurslarının müasirləşdirilməsi;
- nəticəyönlü idarəetmə;
- müasir təhsil infrastrukturu;
- dayanıqlı maliyyələşmə [7].

Aparılmış araşdırmala əsasən bir çox iqtisadçılara görə iqtisadiyyatın əsas təməli təhsil faktorunun üzərinə qurulur. Belə ki, insan resurslarının inkişafı üçün təhsilə ayrılan xərclərin artırılması bir çox ölkələrdə iqtisadi inkişafa səbəb olmuşdur, Yaxın Şərq ölkələri bunlara əsas nümunələr kimi qeyd oluna bilər. Bir çox inkişaf etmiş ölkələrdə aparılmış araşdırmalara əsasən belə nəticəyə gəlinmişdir ki, savadlılıq səviyyəsində 20 faizdən 30 faizə qədər artım ÜDM-də 8 faizdən 16 faizə qədər

artıma səbəb olur, bu da təhsilin inkişafının iqtisadi inkişafa birbaşa təsirinin göstəricisidir. İqtisadi inkişaf ölkənin sosial inkişafının da artmasına təsir edən əsas faktordur [8, s.210].

Azərbaycan Respublikasının dövlət büdcəsindən təhsil sahəsinə ümumi olaraq 2015-2025-ci illər arası, yəni 10 il ərzində ayrılan vəsaitin təxminən 2.9 dəfə artması təhsilə ayrılan diqqətin əhəmiyyətini göstərir. Təhsilin inkişafına ayrılan vəsaitin davamlı artması təsadüfi deyildir; bu, ümumilli lider Heydər Əliyevin təhsil siyasətinin davamı kimi qiymətləndirilir. O, deyirdi: *"Məktəb, maarif, təhsil işi ilə həmişə sıx bağlı olmuşam. Hesab edirəm ki, cəmiyyət harada olursa olsun, nədən olursa olsun kasib təhsilə xərcləməli, gənc nəslin savadına, biliyinə, müəllimə kömək etməlidir. Bu mənim prinsipial mövqeyimdir".* [9, s.44].

Azərbaycan Respublikası 2005-ci ildən etibarən Boloniya prosesinə qoşulmuş və təhsil sistemində bu proses tətbiq edilməyə başlanılmışdır. Bu proses ümumilikdə bakalavr, magistr və doktorantura təhsilini əhatə edən üçpilləli ali təhsil sistemini təqdim etmək, başqa universitetlərdə alınan təhsil və ixtisasların qarşılıqlı tanınmasını təmin etmək, tədrisin keyfiyyətini və aktualığını gücləndirmək üçün keyfiyyət təminatı sistemini tətbiq etməyi və s. əhatə edir [10, s.81-100].

Azərbaycan Respublikası gənclərin xarici ölkələrə prestijli universitetlərdə təhsil almasına daima dəstək olmuşdur, bu tələbələr ölkəyə qayıdaraq müəssisə və təşkilatlarda əmək fəaliyyəti ilə məşğul olur, öz təcrübələrini bölüşərək müxtəlif sektorların inkişafında böyük rol oynayırlar. *"2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil almasına dair Dövlət Proqramı"* əsasında aparılan uğurlu siyasət nəticəsində 2015-2016-cı tədris ili üzrə 373 tələbə, 2025-2026-cı tədris ili üzrə isə 500 tələbə xaricdə təhsil hüququ qazanmışdır. Bu göstəricilərin 10 il ərzində müqayisəli təhlili göstərir ki, xaricdə təhsil alan tələbələrin sayında təxminən 34% artım olmuşdur, bu da birbaşa dövlət dəstəyinin artması ilə bağlıdır.

Azərbaycan Respublikasında təhsil sisteminin inkişafı istiqamətində nəzərdə tutulan əsas prioritet istiqamətlərdən biri regionlarda təhsil sisteminin inkişafıdır. Son illərdə regionlarda yeni məktəblərin tikilməsi istiqamətində bir sıra qərarlar verilmişdir. 2025-ci il üzrə Balakən, Sabirabad, Şəki, Quba, Qusar, Neftçala, Kürdəmir, Ağdaş, İsmayıllı, Tovuz, Göygöl, Tərtər, Göyçay, Qəbələ, Oğuz və digər rayonlarda modul tipli məktəblər inşa edilmişdir. Ümumilikdə son 15 il ərzində ölkə ərazisində üç mindən çox məktəb tikilmişdir [6].

2015-ci ildə BMT tərəfindən qəbul edilmiş Dayanıqlı İnkişaf Məqsədlərinin 4-cü əsas məqsədi olan "Keyfiyyətli Təhsil" hamı üçün inkluziv və bərabər təhsilin təmini, hazırda dünya ölkələrinin təhsil sahəsində qarşıya qoyduqları əsas priroritetlərdən biridir. Belə ki, 2030-cu ilədək həyata keçirilməsi nəzərdə tutulan bu məqsədlər içərisində təhsil sahəsində bütün qız və oğlan uşaqlarına ədalətli və keyfiyyətli ibtidai və orta təhsilə əlçatanlığını təmin etmək əsas prioritetlər içərisindədir. Təhsilə əlçatanlıq baxımından hələ də bir sıra dünya ölkələrində böyük problemlər mövcuddur. Mərkəzi Afrika ölkələrində uşaqların 81%-i məktəbə getsə də, yalnız 63%-i ibtidai təhsili tamamlayır. Hər bir şəxsin dinindən, dilindən, cinsindən, mənsubiyyətindən asılı olmayaraq, təhsil almaq hüququ vardır. 2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı" çərçivəsində sağlamlıq imkanları məhdud gənclərin təhsilin bütün pillələrində digər gənclərlə bərabər formada iştirakını təmin etmək üçün bir sıra tədbirlər görülmüşdür. Beləki, Bakı, Gəncə, Sumqayıt, Quba, Şəki, Ağcabədi və Qazax regionları üzrə ümumi təhsil müəssisələrində *Müəllim İnkişaf Mərkəzlərinin* yaradılması buna əsas nümunə kimi göstərilə bilər [11, s.6].

Təhsil-təlim prosesində müasir texnologiyalardan, eləcə də elektron təhsil resusrslarından istifadənin əlçatan olması inkişaf etmiş ölkələrin təhsil sisteminin inkişafında əsas rol oynayan amillərdən biridir. Bu gün müxtəlif informasiya və kommunikasiya texnologiyaları təhsil və öyrənmə prosesini asanlaşdırmaq imkanına malikdir. Həmçinin, informasiya texnologiyalarının təkcə şagir və tələbələrin deyil, eləcə də müəllimlərin peşəkar inkişafı üçün effektiv və çevik üsullar

təqdim etdiyini göstərən araşdırmalar mövcuddur [12]. Təhsil müəssisələrinin daha effektiv, müasir standartlara cavab verəcək formada təşkili üçün İKT və digər rəqəmsal avadanlıqlarla təminatının olması vacib amillərdəndir və bu istiqamətdə son illərdə ölkə ərazisində əhəmiyyətli tədbirlər görülmüşdür. 2025-ci il ölkə üzrə bir çox təhsil müəssisələri Azərbaycan Təhsil Şəbəkəsinə (ATŞ) və internetə çıxışla təmin edilmişdir. Bu da internetə çıxışı olan müəssisələrin sayında 2.7 dəfə artım olduğunu göstərir. 2024-2025-ci tədris ilində "Rəqəmsal məktəb" layihəsi ictimaiyyətə təqdim edilmişdir. Layihə çərçivəsində Rəqəmsal məktəb platformasında valideynlər, şagirdlər, müəllimlər, direktorlar üçün xüsusi kabinetlər yaradılmışdır. Valideynlər övladlarının gündəlik qiymətləri öyrənə və direktorla birbaşa onlayn əlaqə saxlaya bilər, şagirdlər kabinetlərinə daxil olaraq müxtəlif təhsil resuslarından istifadə edə, direktorlar isə məktəb statistikası, ümumi hesabatlar və digər sənədləşmə işlərini izləyə bilərlər. Gələcəkdə bu platrformanın ölkənin hər tərəfində tətbiq olunması nəzərdə tutulur [13].

Azərbaycan Respublikası 2023-cü ildə 15 yaşdan yuxarı şəxslərin savadlılıq səviyyəsinə görə dünya ölkələri arasında 100% nəticə (99.8%) ilə ilk 5-likdə yer almışdır. Bu nəticə təhsildə aparılan islahatlarla yanaşı, təhsilin əlçatan olması, icbari ümumi orta təhsil (yəni, uşaqların böyük əksəriyyəti oxuyub-yazmaq bacarığına yiyələnir), əhali arasında savadlılıq amilinin ciddi şəkildə təşviq olunması, sosial-mədəni faktorlarla sıx bağlıdır [14].

2021-ci ildə Azərbaycan Respublikası Prezidenti tərəfindən Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər qəbul edilmişdir. Qəbul olunmuş bu 5 əsas milli prioritetlərin hər biri birbaşa və ya dolayı yolla təhsilin inkişafı ilə bağlıdır. "İşğaldan azad olunmuş ərazilərə böyük qayıdış" adlanan milli prioritetimizin əsasında duran məsələlərdən biri də Qarabağ regionunda təhsil müəssisələrinin yaradılmasıdır. Regionda ilk ali təhsil ocağı 1969-cu ildə Azərbaycan Pedaqoji İnstitutunun filialı kimi olmuşdur. 2023-cü ildə Xankəndi şəhərində Qarabağ universitetinin yaradılması ilə bağlı qərar qəbul edilməsi regionda bərpa-quruculuq işlərində təhsil müəssisələrinin də vacibiyyət kəsb etdiyini bir daha göstərir.

"Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi" adlanan milli prioritetin həyata keçirilməsi üçün tək dövlətin yox, maarifləndirilmiş cəmiyyətin dəstəyi də önəmlidir. Ekoloji savadlılığı artırmaqla təmizliyi qoruyub saxlamaq, təbiətə və canlılara hörmətlə yanaşmaq və s. kiçik yaşlardan ailədə və məktəblərdə uşaqlara və gənclərimizə aşılanmalı olan əsas məsələlərdəndir. Alternativ enerji mənbələrdən istifadə edilməsi, tullantıların idarə edilməsi üçün yeni texnologiyaların tətbiqi gələcək tendenssiyaları formalaşdırmaqdadır. Sahə üzrə gənclərin maarifləndirilməsi onların bu tendensiyaya ayaq uydurmasında böyük əhəmiyyət daşıyır [15].

Aparılan araşdırmalara əsasən təhsilin inkişafı ölkə ərazisində cinayət səviyyəsinin düşməsinə səbəb olan amillərdən əsası kimi göstərilir. 2001-ci ildə İtaliyada məhbusların 75 faizini orta məktəbi bitirməmiş şəxslər təşkil etmişdir. 2004-cü ildə ABŞ-da cinayət səviyyəsinin azaldılması məqsədilə dövlət tərəfindən məcburi təhsil sisteminin tətbiqini analiz etmək üçün aparılmış tədqiqatlar göstərmişdir ki, məcbur təhsil sisteminin tətbiqi təhsil səviyyəsinin yüksəlməsinə və sonrakı dövrlərdə ümumi regionda cinayət səviyyəsinin azalmasına gətirib çıxarmışdır [16, s.49].

**Nəticə**

Aparılan tədqiqatlar göstərir ki, təhsil cəmiyyətin əsas inkişaf faktorlarından və ümumi inkişafın əsas hərəkətverici qüvvələrindən biridir. Dövlət tərəfindən təhsilə ayrılan büdcənin artırılması gələcəkdə onun iqtisadi, sosial və digər sahələrdə inkişafdan bəhrələnməsinə birbaşa olaraq təsir edir. Azərbaycan Respublikasında son on illikdə təhsil sahəsində bir sıra dövlət proqramları qəbul edilmişdir. Bu proqramlar çərçivəsində regionlarda və Bakıda yeni məktəblərin tikilməsi, mövcud məktəblərin təmir edilməsi nəzərdə tutulur. 2017-2018-ci illər "Təhsildə keyfiyyət ili" elan edilmişdir.

Azərbaycan Respublikasında təhsil müəssisələrində müxtəlif texnologiya və innovasiyaların tətbiqi, internetə çıxışın təmin

edilməsi, tələbə təqaüdlərinin artırılması, boloniya sisteminin tətbiqi, xaricdə təhsil üçün gənclərə imkanların yaradılması və bu kimi digər görülən işlər təhsil sistemində ciddi irəliləyişlərə səbəb olmuşdur. Təsadüfi deyil ki, ölkəmiz savadlılıq dərəcəsinə görə dünya reytinqlərində ən yuxarılarda yer tutmağı bacarmışdır. 2023-cü il Azərbaycan Respublikası savadlılıq göstəricisinə görə dünya ölkələri arasında yuxarı reytinqlərdə yer almışdır. Son 15 il ərzində ölkə ərazisində üç mindən çox məktəb tikilmişdir. Regionlarda Müəllim İnkişaf Mərkəzlərinin yaradılması, sağlamlıq imkanları məhdud gənclər üçün təhsil imkanlarının formalaşdırılması, rəqəmsal məktəb platformalarının yaradılması təhsildə əlçatanlığı asanlaşdırmağa yönəlmiş əsas addımlardan biri kimi qiymətləndirilir.

## ƏDƏBİYYAT SİYAHISI

1. Mohamed A.I.A., Mohammed M.O., Barom M.N.B. A critical analysis of social development: Features, definitions, dimensions and frameworks. Asian Social Science, 2020;16(1)6102–115. Doi: 10.5539/ass.v16n1p102
2. Kant I. Über Pädagogik. Königsberg: Friedrich Nicolovius; 1803, 146 s.
3. Adesemowo P.O. Basic of education: the meaning and scope of education. Ogun: Olabisi Onabanjo University Press; 2022, 230 s.
4. Siakas K., Rahanu H., Georgiadou E., Paltalidis N. Education and social development: current pedagogical trends. In: Proceedings of the 4th International Conference on Education Science and Development (ICESD 2019); 2019 Jan 19–20; Shenzhen, China. Paris: Atlantis Press; 2019;12–18. Doi: 10.12783/dtssehs/icesd2019/28060
5. Mehrabov A. Azərbaycan təhsilinin müasir problemləri. Bakı; Mütərcim; 2007. 30 s.
6. Azərbaycan Respublikası Təhsil Nazirliyi. İllik hesabat 2009–2024, Bakı. https://edu.gov.az/hesabatlar (Accessed April 30, 2026).
7. Azərbaycan Respublikası Prezidenti. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası, Bakı, 2013. Available at: https://president.az/az/articles/view/9779 (Accessed April 30, 2026).
8. Öztürk E., Kardaş M., Sapmaz A., Dönmez U., Şahin İ., Çölkesen A. The place of education in social development and its sociological foundations. Educational Research and Reviews. 2022;17(8):210. Doi: 10.5897/ERR2022.4254
9. Əhmədov H. Azərbaycan təhsilinin inkişaf strategiyası. Bakı; Elm; 2010. 44 s.
10. Huisman J., Adelman C., Hsieh C.C., Shams F., Wilkins S. The Bologna process and its impact in the European Higher Education Area and beyond. In: Deardorff D.K., de Wit H., Heyl J.D., Adams T., editors. The SAGE Handbook of International Higher Education. Thousand Oaks (CA): Sage Publications; 2012;81–100.
11. Advocates for International Development. SDG 4: Quality Education (Legal Guide to the SDGs). London: Advocates for International Development; 2022, s.6
12. Hamidi F., Meshkat M., Rezaee M., Jafari M. Information technology in education. Procedia Computer Science, 2011;3:369–373. Doi: 10.1016/j.procs.2010.12.062.
13. Azərbaycan Respublikası Təhsil Nazirliyi. İllik hesabat 2024-2025. https://edu.gov.az/az/hesabatlar/22236-1
14. UNESCO Institute for Statistics. Report on the Activities of the UNESCO Institute for Statistics 2023. Montreal: UNESCO Institute for Statistics; 2023. Available from: https://www.uis.unesco.org/en/publications (Accessed 30 April 2026).
15. Azərbaycan Respublikası Prezidenti. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. Bakı; 2021. Available at: https://president.az/az/articles/view/50474. Accessed Aprel 30, 2026.
16. Hjalmarsson R., Lochner L. The impact of education on crime: International evidence. CESifo DICE Report, 2012;10(2):49.

**Ulviya Firamil JUMSHUDLU**
Azerbaijan Tourism and Management University, Lecturer, PhD student, Baku, Azerbaijan

## EDUCATION IN THE REPUBLIC OF AZERBAIJAN AS ONE OF THE PRIORITY DIRECTIONS OF SOCIAL DEVELOPMENT

**Summary**

In addition to healthcare, employment and income levels, cultural development, human rights and freedoms, etc., one of the key factors in the social development of society is the education factor. In every country, the development of education enables all sectors to be provided with qualified personnel and ensures that the country's future is built on a sustainable foundation. In this regard, studying the education sector in parallel with other fields creates conditions for identifying the main directions influencing each area of a country's social development. The main purpose of the article is to examine the development rate of the education sector in the Republic of Azerbaijan as one of the social spheres. The article analytically analyzes information based on scientific articles and books on the development of education, and compares statistical indicators of the last decade collected from various official sources. Overall, the research examines education as one of the main directions of social development, reviews educational reforms implemented in the country over the past ten years, adopted state programs, the quality of educational services in institutions, and measures taken for the development of education in the regions, and finally analyzes and summarizes the achievements obtained.

**Keywords:** education system, development, educational reform, state program, Azerbaijan.

**Ульвия Фирамил ГЮМШЮДЛУ**
Азербайджанский Үниверситет Туризма и Менеджмента, преподаватель, диссертант, Баку, Азербайджан

## ОБРАЗОВАНИЕ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ КАК ОДНО ИЗ ПРИОРИТЕТНЫХ НАПРАВЛЕНИЙ СОЦИАЛЬНОГО РАЗВИТИЯ

**Резюме**

Помимо здравоохранения, уровня занятости и доходов, культурного развития, прав и свобод человека и других факторов, одним из ключевых факторов социального развития общества является фактор образования. В каждой стране развитие образования обеспечивает все отрасли квалифицированными кадрами и способствует формированию устойчивой основы будущего страны. В этой связи изучение сферы образования параллельно с другими направлениями позволяет определить основные направления, влияющие на каждую сферу социального развития страны. Основной целью статьи является исследование темпов развития сферы образования в Азербайджанской Республике как одной из социальных сфер. В статье проводится аналитический анализ информации, основанной на научных статьях и книгах о развитии образования, а также сравниваются статистические показатели за последнее десятилетие, собранные из различных официальных источников. В целом в исследовании образование рассматривается как одно из основных направлений социального развития, анализируются проводимые в стране за последние десять лет образовательные реформы, принятые государственные программы, качество образовательных услуг в учреждениях, меры по развитию образования в регионах, а также анализируются и обобщаются достигнутые результаты.

**Ключевые слова:** система образования, развитие, образовательные реформы, государственная программа, Азербайджан.

**Daxil olub:** 01.06.2026